# Əfsanələrdə təzahür olunan qadının psixosemantik səciyyəsi

**Arzu Vaqif qızı Əliyeva**
*AMEA Folklor İnstitutunun*
*fəlsəfə doktoru proqramı üzrə doktorantı*
**E-mail:** aliyeva92a@gmail.com

**Rəyçilər:** filol.ü.e.d., prof. A.H. Hüseynova,
filol.ü.f.d. S.A. Xavəri

**Açar sözlər:** arxetip, psixosemantik səciyyə, günəş, qadınlıq, psixoanalizm
**Ключевые слова:** архетип, психосемантический характер, солнце, женственность, психоанализ
**Key words:** archetype, psychosemantic character, Sun, femininity, psychoanalysis

Qədim türk nəsrinin günümüzə qədər gəlib çatmış ilkin qaynaqlarından biri də əfsanələrdir. Deyə bilərik ki, xalq nəsri öz başlanğıcını məhz həmin mənbələrdən götürür. Biz əfsanələrdə dünyanı dərk edən ulu əcdadlarımızın erkən bədii düşüncəsinə rast gəlirik. Azad Nəbiyevə görə, "Əfsanə olmuş, yaxud olması mümkün olan bədii həqiqətlər, astral təsəvvürlər, həyat və cəmiyyət hadisələrilə bağlı həyat faktına əsaslanır" (2, s. 282). Bu tərifdən belə qənaətə gələ bilərik ki, əfsanələrin mövzu arealı çoxşaxəli və genişdir, yəni ümumilikdə yaradılış, kainat və cəmiyyətlə bağlı demək olar ki, əksər bədii düşüncələr əfsanələrdə təcəssüm olunmuşdur. Tədqiqatda qadın başlanğıcı, qadınlıq xüsusiyyətləri, ədəbi və sosial yöndən sinkretik şəkildə aşağıdakı təsnifata uyğun nümunələr əsasında təhlilə cəlb olunmuşdur:

1. Astral təsəvvürlər, səma cisimləri və bürclərlə bağlı əfsanələrdə qadın;
2. Bitki və heyvanat aləmi ilə əlaqədar əfsanələrdə qadın;
3. Toponomik əfsanələrdə qadın;
4. Tarixi şəxsiyyətlər, el, tayfa və qövm adı ilə bağlı əfsanələrdə qadın;
5. Dini əfsanələrdə qadın.

*Astral təsəvvürlər, səma cisimləri və bürclərlə bağlı əfsanələrdə qadın:* Əfsanələrin bu qrupunu janrın ən qədim nümunələrindən hesab edə bilərik. Çünki insan taleyi və həyatı haqqında ilkin fikir xalqın kosmoqonik təsəvvürləri vasitəsilə təzahür olunmuşdur. Qadının istər fəlsəfi, istərsə də sosial mahiyyətini öyrənə bilmək üçün bu qrup əfsanələr baza rolunu oynayır.

*"Günəş və ay haqqında əfsanə"də* (3, s. 244) Günəş adlı gözəl bir qızla Ovçu arasındakı münasibətdən söhbət açılır. Günəş əfsanənin əvvəlində insan-qadın kimi təsvir olunur, yəni hələ kosmoqonik mahiyyət daşımır. O, Ovçunun evində qalmasına baxmayaraq, Ovçu qıza yaxınlaşıb sevgisini etiraf etmək gücünü özündə tapmır, çünki Günəşdən süzülən işıq ox kimi insanın gözünə sancılır. Ovçu qıza yaxınlaşa bilməyəcəyini dərk edib, Günəşin gözəlliyini hamıya car çəkir. Sonda qonşuluqda olan bir kişi onu tutmaq üçün qızı ox ilə vurur. Atılan ox Günəşi sinəsindən yaralayır. Günəş yaralı-yaralı qaçır. Günəş göyün üst qatına qalxır və donundakı qan izləri qurşaq şəklində göyün üzündə yağışdan sonra görünür.

Ovçu tutduğu işdən peşman olur, lakin Günəşə çata bilmir. Əfsanənin sonunda Ovçunun əslində Ay olduğu deyilir. Ay Günəşlə görüşüb günahını boynuna almaq, üzr istəmək üçün çalışır, ancaq təəssüf ki, Günəşlə Ay bir daha birgə ola bilmirlər.

*"Ay və Günəş"* (3, s. 244-245) haqqında digər bir əfsanədə yenə Günəş "qadınınlığ"ı

təmsil edir. Deyirlər, Ay və Günəş bacı-qardaş imiş. Bir gün onların anaları yuxa bişirmək üçün hazırlıq görürmüş. Anası Ayı səsləyir ki, oxlovu gətirsin. Ay oxlovu gətirmir, deyir:

- Günəş gətirsin. Günəş və Ay bir-biri ilə savaşır. Bu zaman ana sacı külləyirmiş. Ana acıqlı-acıqlı durur və Ayın üzünə bir sillə vurur. Ay tutduğu işdən peşman olur. Günəş isə bu hadisədən çox qorxur. Hər ikisi evdən qaçıb gedirlər. Bundan sonra deyilir ki, Günəşin günahı olmadığı üçün, o, gündüz, Ay isə utandığından gecələr çıxır.

Nümunə gətirilən hər iki əfsanədə Günəşi iki ayrı fonda görə bilirik:

- insani mahiyyət daşıyan qadın obrazı;
- insandan cansız aləmə transformasiya olunan qadınlıq.

Hər ikisinin ortaq cəhəti qadınlıq konsepsiyası və onun qadında əks olunan mənəvi-sosial səciyyəsidir. Belə ki, ilk əfsanədə qadın-kişi, ikinci əfsanədə isə ailədaxili mübahisə fonunda qadının məruz qaldığı çətinlik və ətrafın onun üçün təyin etdiyi müəmmalı aqibətin şahidi oluruq. Günəş ilkin mərhələdə qarşı cinsdə şəxsiyyətin primitiv, instiktiv aspekti olan "id"in qurbanı olur. Burada əks mövqedə çıxış edən qarşı cins ilk əfsanədə Günəşi sevən ovçudursa, ikinci əfsanədə Günəşin qardaşı Aydır. "İd" Freydin şəxsiyyət anatomiyasının ən üst qatıdır, o, insan davranışında qeyri-şüuri mövcud olan instiktiv bioloji niyyətlərlə əlaqəlidir (7). *"Günəş və ay haqqında əfsanə"də* qadın ovçuda insan həyatının ilkin prinsipi olan, həzz prinsipini ifadə edən "id"in ehtiyatsız davranışı nəticəsində insandan Günəşə transformasiya olunur. "Ay və Günəş"əfsanəsində isə bu hal qardaşın şəxsiyyətində təzahür edən, ehtiyatdan uzaq olan"id" sayəsində bu hal təkrarlanır. Bu keçid heç də sıravi mahiyyət daşımır, əksinə, qadının gördüyü psixi çətinlik və ziddiyyətli hadisələr müqabilində astral mahiyyətli Günəş qadının yüksək ali dəyərlərini özündə cəm edir və bir daha Ay ilə bir yerə gəlmir.

*Bitki və heyvanat aləmi ilə əlaqədar yaranan əfsanələrdə qadın:* Ulu əcdadlarımızın qadınlar haqqında ilkin dünyagörüşünü onların zoomorfik düşüncələrinin əks olunduğu əfsanələrdən də əldə edə bilərik. Təbiəti dərk etməyə çalışan insanlar təkamül yolunda müxtəlif etiqadlara sahiblənirdilər. Bizim əsas məqsədimiz isə bu etiqadların sərgiləndiyi bədii zəmində qadının yeri və rolu haqqında onların hansı psixososial mərhələlərdən keçdiyini araşdırmaqdır.

*"Qızılgül əfsanəsi"*nə (3, s.143) nəzər salsaq, orada Qızıl ilə Bülbülün qarşılıqlı məhəbbətinin şahidi olarıq. Başqa biri ilə ailə qurmaq istəməyən Qızıl öz sevdiyinə sadiq qalmaq naminə sevdiyi Bülbülün həyatində gözəl qoxulu gül olmağa razıdır. O, atasının övlad sahibi olmaq üçün çıxdığı dağa gedərək el-obasının olmamasından, ata-anasını itirməsindən gileylənərək, dağdan onu qoxulu bir gül ağacına döndərməsini və bülbülün həyatində bitirməsini istəyir (3, s. 144).

Ziqmund Freydə görə, qadın yarımçıqlıq kompleksindən əziyyət çəkən yaradılışa sahibdir (8). Əlbəttə, bu fikirin yanlış olduğunu deyən və ya bu fikrə əks mövqedən çıxış edən bir sıra psixoanalitiklər də olmuşdur (Karen Horni kimi). Qeyd etmək olar ki, Freydin nəzərdə tutduğu kompleksin zəminində qadının kişiyə qarşı olan fallik qısqanclığının olması fikri durur. "Qızılgül əfsanəsi"ndə isə Qızıl obrazındakı yarımçıqlıq məsələsi bir qədər fərqli məzmun çalarına sahibdir. Doğrudur, Qızıl özünü tamamlanmamış hiss edir, bunun zəminində isə onun ata və anasından görmədiyi dəstək, eyni zamanda sevdiyi şəxsdən uzaq düşmək qorxusu durur. Bu qorxu ilə qadın gül ağacına dönmək istəyini dilə gətirərək öz insan mahiyyətindən imtina etməyi gözə alır. Bu hal psixoanalizmdə müdafiə olunan insanın şəxsi istəkləri uğrunda apardığı mübarizəyə paradoksallıq təşkil etsə də, qadının mənəvi idealları uğrunda etdiyi fədakarlığa nümunə ola bilər.

*"Səməndər əfsanəsində* (3, s.168) Səməndər qarlı-buzlu ölkələrdə yaşayan qısaömürlü quş

kimi təsvir edilir. Bu quşun dimdiyi polad, caynaqları çaxmaqdaşı, tükü isə qovdandır. Səməndər quşunun iki balası olur. Balaları bir ilə pərvazlanıb uçmağa başlayırlar. Balalarının belə böyüyüb uçduğunu görən ana hər şeyi unudur, dimdiyini caynağına vurub od saçır və onun qov tükü alovdan alışır. Səməndər quşu yanıb kül olur.

Sözügedən əfsanədə isə ana konsepsiyasının insan obrazından fərqli olaraq başqa bir canlı varlıqda təzahür olunmasının şahidi oluruq. Səməndər insan kimi yox, yaradılış etibarilə quş kimi təsvir edilir. Biz buradakı ana konsepsiyasını kütləvi şüursuzluğun ilkin psixi obrazlarından olan arxetiplər ilə əlaqələndirə bilərik. Belə ki, arxetip nəsildən-nəslə keçən, şəxsiyyət tərəfindən dərk edilməyən, müəyyən mədəniyyətlərin, etnosların, nəsillərin, müxtəlif invariant obrazların davranış formasıdır (6). Qeyd edək ki, Səməndər hər nə qədər qeyri-insani obraz olsa da, ana arxetipinin psixi düşüncəsi onun davranışında təcəssüm olunur. Onun üçün əsas olan övladının inkişafı və xoşbəxtliyidir ki, bu hal ana arxetipinin müsbət yönlü davranışına nümunə ola bilər. Səməndəri fenomenal ana obrazı səviyyəsinə qaldıran da onun həyatının övlad uğrunda etdiyi ehtiyatsızlıq nəticəsində sonlanmasıdır.

*Toponomik əfsanələrdə qadın:* Əfsanələrin bu qrupu artıq qismən məskunlaşmış, özünə yurd tutmuş insanların bədii təfəkkür nümunələridir. Toponomik əfsanələr müəyyən qədər tarixi faktlara əsaslandığına görə onu mədəni dəyərlərin nəsillərarası ötürücüsü kimi görə bilərik. Bu qrup əfsanələrdə daş, qaya, yer, çay, göl, qala, şəhər ilə bağlı təsəvvürlərdə qadınlarla əlaqəli motivlər öz əksini tapır.

*"Oğlan-qız daşı"* əfsanəsində (3, s. 50) Zərbigül adında güclü bir qadından söhbət açılır. Onunla evlənmək istəyən çox insan olduğuna görə, Zərbigül evlərinin yanındakı iki daşdan birini uzaq bir mənzilə atır. Əsas istəyi isə evlənəcəyi adamın gücünü sınamaq və ona layiq olub olmadığını bilməkdir. Bunun üçün, o, uzaq bir yerə daş atır. İstəyi isə evlənəcəyi adamın da onun atdığı mənzilə daş atmasıdır.

XX əsr ictimai fikrinin ən geniş miqyaslı istiqamətlərindən biri də psixoanalizdir. Deyə bilərik ki, hər bir fərdin psixi spesifikası onu soykökü ilə əlaqələndirir. Bu zaman isə şəxsiyyət strukturunun daha dərin qatı olan arxetiplər mərkəzi qüvvə rolunda şıxış edir. Bildiyimiz kimi, qadın feminin xüsusiyyətlərlə əlaqəli yaradılışa sahibdir. Qeyd etmək olar ki, qadında olan feminin xüsusiyyətlərlə yanaşı, qadın "mən"inin strukturunda "daxili kişilik" (animus) mövcuddur. Sözügedən əfsanədə Zərbigül obrazındakı bir qədər sərt və özünəinamlı davranışın mərkəzində animus streotipləri dayanır. "Animus" qadın eqosu ilə şəxsi yaradıcılıq mənbələri arasında körpü rolunda çıxış edən daxili kişi obrazıdır (5). Bəli, Zərbigüldə həyat yoldaşını seçmək üçün yaranan ideya, onun hərəkətlərindəki cəsur və təşəbbüskar güc birbaşa obrazın animusu ilə əlaqəlidir. Belə ki, obrazdakı qadınlıq mahiyyətinin əsas ideyalarından olan ailə qurmaq istəyi və animusun həyat fəallığı sinkretik səciyyə daşıyır.

*"Yaslı qaya"* əfsanəsində (3, s. 54) isə qadının sevgi hissindən doğan mənəvi güc xüsusi olaraq vurğulanır. Belə ki, Ələsgər adında kasıb bir kəndli ilə varlı bir kişinin Alagöz adlı qızı arasındakı güclü məhəbbətin qarşılaşdıqları maneələri dəf etməsindən danışılır. Qız sevmədiyi biri ilə evlənməkdənsə, Ələsgərlə birgə qaçıb xoşbəxt olmaq istəyir. Doğrudur, sonda bu sevgi uğrunda mübarizədə hər ikisinin həyatlarına son qoyulur.

Bu qənaətə gələ bilərik ki, qadında yaranan sevgi hissi onu qarşı tərəfdən emosional asılı olmağa vadar edir. Deyə bilərik ki, insanda yaranan bu emosionallıq ölüm instikti olan "tanatos"a meyillidir. "Tanatos" Freydin insan həyatının əsasını təşkil edən iki instiktdən biridir (7) və o, insanda özünəqəsd və qətləyetirmə tendensiyalarını yaradır. Bu instikt əfsanənin qadın obrazı olan Alagözün mənəvi təlatümlərini şiddətləndirərək obrazın mənəvi özünüdərkinə qarşı ziddiyyətli xarakter daşıyır. Bəli, Alagözün Ələsgərə qarşı duyduğu sevgi hissi yüksək

ali dəyərlərdən olan xoşbəxt olmaq istəyi ilə əlaqəlidir. Ancaq obrazın şəxsi məqsədlər uğrunda apardığı mübarizəsi öz ideyası uğrunda canını fəda etməsi ilə nəticələnir.

Eyni zamanda qeyd etmək olar ki, toponomik əfsanələr qrupuna daxil olan "Laçın qayası"nda Ülkərin Laçına verdiyi mənəvi güc, "Gəlin qayası" və "Saçlı qaya"da qadının əxlaqi-etik ideya uğrunda mübarizəsi, "Qanlı qaya"da Tellinin Hilal uğrunda sinə gərdiyi çətinliklər qadının psixosemantik mahiyyətini aydın şəkildə təzahür etdirir.

*Tarixi şəxsiyyətlər, el, tayfa, qövm adı ilə bağlı yaranan əfsanələrdə qadın:* Bu qrupa daxil olan əfsanələrdə həm bizim milli soykökümüzə aid olan şəxiyyətlər, eyni zamanda tarixi-coğrafi münasibətlərdən asılı olaraq ata yurdumuza başqa yerlərdən gələn şəxslər haqqında əfsanələri daxil edə bilərik. Bu əfsanələrin bir qrupunu "Dədə-Qorqud əfsanələri" təşkil edir. Buna isə "Xornaçı" (3, 302) və "Uzun qız" (3, 304) əfsanələrini nümunə gətirə bilərik. Hər iki əfsanədə əsas obrazlar eyni, Uzun qız adlandırılan mənfi xüsusiyyətlərə sahib qadındır. Qazan köşkü deyilən mahalda Xornaçı adlandırılan bir azman Uzun qız adlı bacısı ilə birgə yaşayırmış. Bacısı öz qardaşını evləndirmək istəsə də, heç kəs Xornaçıya qızını vermək istəmir. Bacısı bunun üçün əvvəla fal açdırıb qardaşının gələcək taleyindən xəbərdar olmaq istəyir. Falçı Xornaçının bəxtinin ancaq yeddi torpaq təpə düzəltdikdən sonra açılacağını deyir. Beləliklə, Uzun qızla qardaşı bu məqsəd uğrunda insanlara zülm etməyə, onları qəddarca işlətməyə başlayırlar. Sonda işçilərdən birinin Körpəşi adlı oğlu həm Uzun qızı, həm də Xornaçını öldürə bilir. Uzun qız mənfi obrazdır, o, qarşadının ölüsünü tapmaq üçün təpələrin torpağını göyə sovurur. Eyni zamanda intiqam hissi və qardaşının qatillərinə zülm vermək istəyi onun qeyri-insani tərəflərinin göstəricisidir.

Qeyd edə bilərik ki, insan şəxsiyyətinin mental mahiyyətini təşkil edən psixi fakt heç də sabit deyildir. Yəni psixi faktın keyfiyyət xarakteristikasında mənfi hesab edəcəyimiz bir sıra xarakteristik xüsusiyyətlər də ola bilər. Yunqa görə, insan heterogen şəxsiyyət strukturuna məxsusdur (8). Məhz bu səbəbdən də insanda qadın və kişi xüsusiyyətlərinin olması ona ziddiyyətli mahiyyət aşılayır. Doğrudur, biz animusdan danışarkən qadında onun müsbət yəni, qadında əks olunan cəsarətli tərəflərinin olduğunu vurğulamışdıq. Deyə bilərik ki, animus tanatos, yəni həyat (eros) yox, ölüm instiktinə məxsusdur. Elə bu səbəbdən də, qadındakı qəddarlıq, mühafizəkarlıq, xaos animusun real gerçəkliyindən qaynaqlanır. Bütün bu deyilənləri nəzərə alıb "Xornaçı" və "Uzun qız" əfsanələrində iştirak edən, mənfi obraz hesab etdiyimiz Uzun qızın özünəməxsus psixi mənasını onda olan animus arxetipinin ziddiyyətli substansiyası ilə əlaqələndirə bilərik. Çünki obraz qardaşının intiqamını almaq istəyi içərisində doğru olmayan yollara əl atır və insanları cəzalandıraraq onlara müxtəlif əziyyətlər verir. Onun bu qəddarlığı və istismaredici düşüncəsi kəskin xarakter alaraq öz sonunu gətirir.

*Dini əfsanələrdə qadının psixosemantik səciyyəsi:* Bu qrup əfsanələrin tarixi bir qədər qədimdir. Belə ki, insanların dini inancları formalaşmağa başlayarkən artıq onlar ilkin dini təfəkkürləri barədə müxtəlif fikirlər səsləndirməyə başlamışlar və bu əfsanələrdə öz əksini tapmışdır. Deyə bilərik ki, dini əfsanələrdə qadının taleyi, qadın yaradılışının fərqli baxış müstəvilərində dəyərləndirilməsi, qadının cəmiyyədəki mövqeyi həm dünyəvi, həm də bəşəri yöndən səciyyələndirilməsi əsas tendensiyalardandır. Dini zəminində yaradılan əfsanələrdə qadın obrazları və qadınlarla bağlı kifayət qədər məlumatı əldə etmək olar. Bura "Adəm və Həvva" (2, s. 289) ilə bağlı olan əfsanələri nümunə gətirə bilərik. "Qurani-Kərim"də adı çəkilən ilk qadın Həvvadır. Buradan belə qənaətə gələ bilərik ki, Həvva islamdan folklora keçmiş qadınlıqla əlaqəli olan dini düşüncənin təzahürüdür. Allah-Təala Adəmə - "Ey Adəm, sən zövcənlə (Həvva ilə) Cənnətdə qal və hər ikiniz oradakı meyvələrdən, istədiyiniz kimi, bol-bol yeyin, yalnız bu ağaca yaxın gəlməyin! Yoxsa (özünüzə) zülm edənlərdən olarsınız" (əl-Bəqərə: 35)

deyir. Adəm və Həvva Cənnət bağlarında hədsiz dərəcədə sevinirdilər, çünki orada onlar üçün hər şey, çeşidli ağaclar, ətirli və dadlı meyvələr hazırlanmışdı. Adəmə sınaq meydanı verilən kimi İblisin – Şeytanın əlinə fürsət düşür ki, Adəmdən intiqam alsın ve onu sapdırıb fəlakətə uğratsın. O, Adəmlə Həvvaya yaxınlaşıb onları qadağan edilmiş ağacın meyvəsindən yeməyə şirnikləşdirərək deyir: "bu meyvədən yemək, əksinə, sizə xeyir gətirər". Adəmlə Həvva şeytanın vəsvəsəsinə, şirin sözlərinə uyub ilahi qadağanı pozurlar, bu isə müqəddəs kitabda "Onların cənnətdən qovulması" kimi təsvir edilir. Xalq təfəkküründə formalaşan əfsanələrdə isə Adəmin cənnətdən qovulma səbəbi kimi qadın göstərilir və Həvva günahlandırılır. Müasir psixoanalizə aid bilgilər də deyilənləri sübuta yetirir ki, həqiqətən, qadın kişiyə nisbətən daha həssas, emosional və hissiyyata qapılandır. Hətta demək olar ki, psixoanalizdə kişinin zəif, qeyri-şüuri tərəflərini əks etdirmək üçün anima (kişidə olan daxili qadın obrazı) arxetipindən söhbət açılır. Kişilər isə nisbətən daha artıq məntiqlə və soyuq düşüncə ilə hərəkət etməyə, qeyri-emosional addımlar atmağa meyllidirlər. Bu isə qadında olan animus (qadında olan daxili kişi obrazı) arxetipinin təməli kimi göstərilir. Belə nəticəyə gəlmək olar ki, istər sosial mühitdə, istərsə də elmi-nəzəri araşdırmalarda qadındakı güc kişi, kişidəki zəiflik isə qadınla əlaqələndirilir. Lakin bu o demək deyil ki, emosional olan Həvva daha məntiqli yaradılışa sahib olan Adəmi şeytanla əlbir olaraq yoldan çıxarmışdır.

Belə ki, dini ideyalar insanların qadınlarla bağlı olan düşüncələrinə və qadının cəmiyyətdəki roluna təsir etmə və formalaşdırma potensialına sahib olmuşdur. Freyd nəzəriyyəsində adı çəkilən "şəxsiyyətin anatomiyası" Azərbaycan şifahi xalq ədəbiyyatına məxsus abidələrində bəhs olunan "qadınlıq anlayışı" və "qadın obrazlar" silsiləsində öyrənə bilinməsi üçün dini məzmunlu əfsanələrdə "qadın"ın psixo və sosial mahiyyəti önəmli rola malikdir. Sonda bu qənaətə gələ bilərik ki, ulu əcdadımızın erkən dünyagörüşünün təzahür formalarından olan əfsanələrdə qadının fəaliyyət və ünsiyyətindəki psixoloji aspekti fərqli məzmun çalarlarında əks olunmuşdur. Bu səbəbdən, əfsanələr qadının mürəkkəb və çoxcəhətli yaradılşının və psixososial semantikasının öyrənilməsində əhəmiyyətli rola sahibdir.

**Məqalənin aktuallığı.** Günümüzdə xalq ədəbiyyatı nümunələrində qadın obrazlarının psixososial semantikasına səthi yanaşılmış və bu sahədə araşdırmaların əksəriyyəti digər ölkələrdə həyata keçirilmişdir. Bu səbəbdən şifahi xalq ədəbiyyatı nümunələri əsasında qadınının psixoxsosial göstəricilərinin psixoanalitik aspektdən təhlil olunması tədqiqatın aktuallığı hesab oluna bilər.

**Məqalənin elmi yeniliyi.** Şifahi xalq ədəbiyyatı incəsənət nümunələrinə aid olsa da, psixoanalizm elmlərin ictimai-sosial qütbünə aiddir. Bu səbəbdən humanitar və sosial elm sahələrinin əfsanələrdəki qadın obrazları fonunda qarşılıqlı əlaqəsini araşdırmaq tədqiqatın elmi yeniliyi hesab oluna bilər.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Tədqiqat ədəbiyyatdakı qadın obrazlarının psixi hallarının öyrənilməsi və psixoanalizmin ədəbiyyat sferasında araşdırılması yönündən praktiki əhəmiyyətə malikdir. Araşdırma istər sosial, istərsə də ədəbi elm sahələrində tədris materialı kimi istifadə oluna bilər.

## Ədəbiyyat

1. Xəlilov Pənah. Türk xalqlarının və şərqi slavyanların ədəbiyyatı (I kitab). Bakı: Maarif, 1994.
2. Nəbiyev Azad. Azərbaycan xalq ədəbiyyatı (II kitab). Bakı: Elm, 2006.
3. Pirsultanlı Sədnik Paşa. Azərbaycan türklərinin xalq əfsanələri. Bakı: Azərnəşr, 2009.
4. http://genderi.org/movzu-k-horninin-neofreydizmi.html (K.Horninin neofreydizmi)
5. https://www.yumpu.com/xx/document/view/36926348/kqyunqun-analitik-psixologiya-sında-cinsin-teyin-olunmasa (Yunqun analitik psixologiyasında cinsin təyin olunması)
6. http://mesafedenmekteb.edu.az/ru/component/k2/490-%C5%9Fexsiyyet-nezeriyyeleri.html (Şəxsiyyət nəzəriyyələri)
7. http://azkurs.org/movzu-psixoanalizde-cinsin-problematizasiyasi.html (Psixoanalizdə cinsin problematizasiyası)
8. http://azkurs.org/movzu-psixologiyada-cins-kateqoriyasi.html (Psixologiyada cins kateqoriyası)
9. http://yaaz.az/avesta-kitabi-haqqinda/ (Avesta kitabı haqqında)

**А.В. Алиева**

## Психосемантический характер женщины в легендах
## Резюме

В нашей статье будут проанализированы художественные и психологические проблемы, связанные с «женщиной» и «женственностью», которые находят свое место в легендах, с психосоциальной точки зрения. Эти идеи были отфильтрованы от художественного мышления наших великих предков до наших дней, и они дали нам много информации о ценности, придаваемой женщинам в древние времена, и раннем социальном характере женщин. В легендах психосемантическая природа женщин отражается в астральных фантазиях, топонимических концепциях, первоначальном мышлении о флоре и фауне и мировоззрениях, связанных с историческими личностями и религиозными убеждениями. В легендах мы видим, насколько широка и бесконечна психосемантическая структура женщины.

**A.V. Aliyeva**

## Psychosemantic character of the woman reflected in legends
## Summary

In our article, the artistic and psychological issues related to "woman" and "femininity", which find their place in the legends, will be analyzed from the psychosocial aspect. These ideas have been filtered from the artistic thinking of our great ancestors to the present day, and have given us a great deal of information about the value given to women in ancient times and the early social character of women. In the legends, the psychosemantic nature of women is reflected in astral imaginations, toponymic concepts, initial thinking about the flora and fauna, and worldviews related to historical figures and religious beliefs. In the legends, we witness how wide and infinite the psychosemantic structure of is a woman.

**Redaksiyaya daxil olub:** 02.06.2020